Ədəbiyyat qəzeti

# Lalə Bağırovanın kitabları təqdim edildi



Bu günlərdə Yazıçılar Birliyinin Natəvan klubunda AYB Aran bölməsinin təşkilatçılığı ilə yazıçı-publisist Lalə Bağırovanın yaradıcılığına həsr edilmiş tədbir keçirildi.

Tədbiri Yazıçılar Birliyinin katibi Elçin Hüseynbəyli açaraq Lalə Bağırovanın çoxşaxəli yaradıcılığı barədə ətraflı məlumat verdi. Diqqətə çatdırdı ki, Lalə xanımın müxtəlif janrlarda yazıb-yaratdığı bütün əsərlərini bir əsas cəhət birləşdirir; bu cəhət, başlıca olaraq bitkinlik və səmimiyyətdir. O, həyatı yaxşı bilir və müşahidə etdiyi həyat detallarını özünəməxsus ustalıqla əsərlərinə gətirir, mahiyyəti təqdim edir.

Yazıçılar Birliyi Aran bölməsinin sədri Sərvaz Hüseynoğlu L.Bağırovanın "Talelərin oyunu" adlı didaktik-psixoloji povesti barədə ətraflı məlumat verdi: "Deyim ki, mən bu povesti Belinskinin F.M.Dostoyevskinin "Aldadılmış və təhqir olunmuş insanlar" adlı əsərini oxuyarkən keçirdiyi eyni əhvali-ruhiyyə ortamında oxumuşam. Yəni olduqca kövrək, nisgil duyğuları, təəssüf hissilə bir arada. "Talelərin oyunu" bütövlükdə ən kiçik, ağlasığmaz, çətin məqamda belə insanlığın var olduğu, dirəniş göstərə bildiyi aləmin dolğun bədii şəkili, qənaətləridir..."

Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev çıxış edərək Lalə xanımın yazıçı və şəxsiyyət özəllikləri barədə səmimi ürək sözlərini diqqətə çatdırdı, bildirdi ki, onun şəxsiyyəti, insanlığı yaradıcılıq dünyası ilə üst-üstə düşür. Bir-birini tamamlayır.

Filologiya üzrə fəlsəfə doktoru, "Ədəbiyyat qəzeti"nin baş redaktor müavini Adil Cəmil, şairlərdən Ağacəfər Həsənli, Gülamail, Lalə Bağırovanın həmkarları Yazgül, Lətifə, Rəfiqə, Elvira xanımlar, unudulmaz Qənirə Paşayevanın anası Tehran xanım, AYB-nin əməkdaşı Məlahət xanım və başqaları yazıçının yaradıcılığı barədə ürək sözlərini dilə gətirdilər.

Sonda Lalə Bağırova tədbirin keçirilməsinə şərait yaratdığına görə AYB rəhbərliyinə və iştirakçılara təşəkkürünü bildirdi, sənət düşüncələrini bölüşdü.

*Aynur HƏTƏMOVA*